Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 346-354
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 346-354
Araştırma Makalesi
Original Article

# Bakı Neft Sənayeçiləri Qurultayının Peterburqda nümayəndəliyinin açılması məsələsinə dair

**Polad Xəlilov***
**ORCID:0000-0001-7302-6285**

**Xülasə**

Məqalədə XX əsrin əvvəllərində keçirilən Bakı neft sənayeçiləri qurultaylarında və qurultay Şurasının iclaslarında neft sənayeçilərinin Peterburqda (Petroqradda) daimi nümayəndəlik orqanının açılması məsələsinin müzakirə olunmasından bəhs olunur. Bəhs olunan dövrdə neft sənayesində fəaliyyət göstərən iri firma nümayəndələri ilə xırda və orta firma nümayəndələri arasındakı fikir ayrılıqları səbəbindən bu məsələ öz həllini tapa bilməmişdir. Xırda və orta firma nümayəndələri öz təqdim etdikləri məruzələrində açılması nəzərdə tutulan nümayəndəlikdə bütün neft sənayesi firmalarının bərabər hüquqlara malik olmaları prinsipindən çıxış etsələr də, Bakı neft sənayesini öz inhisarları altına almış iri firma nümayəndələri bu işin həyata keçirilməsinə imkan verməmişdilər.

**Açar sözlər:** qurultay Şurası, neft sənayeçiləri, nümayəndəlik orqanı, iri firmalar, komissiya

**Gönderme Tarihi: 25/11/2019** **Kabul Tarihi:26/12/2019**

* *Dr. Öğretim Üyesi, Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutu,E-mail:polad-xalilov@mail.ru*

© ATDD Tüm Hakları Saklıdır

# On the issue of opening a representative office ofthe Congress of Baku Oil Industrialists in St. Petersburg

**Polad Khalilov**

**Abstract**

The paper deals with the establishment of a permanent representative body of the Congress of Oil Industrialists in St. Petersburg (Petrograd) at congresses of Baku Oil Industrialists and at meetings of the Congress Council held at the beginning of the 20th century. Owing to disagreements between representatives of large firms operating in the oil industry with representatives of small and medium-sized firms during the period under review, this issue could not be resolved. Though the fact that representatives of small and medium-sized firms in their reports came out with the principle that all firms in oil industry have equal rights in the representative office, the opening of which was envisaged, representatives of large firms that included the Baku oil industry in their monopolies did not allow this business to be carried out.

**Keywords:** Council of the Congress, oil industrialists, representative body, large firms, commission

**Received Date: 25/11/2019** **Accepted Date: 26/12/2019**

# По вопросу открытия представительства Съезда Бакинских Нефтепромышленников в Петербурге

**Полад Халилов**

**Резюме**

В статье обсуждается вопрос об открытии постоянного представительного органа съезда нефтепромышленников в Петербурге (Петрограде) на съездах бакинских нефтепромышленников и на заседаниях Совета съезда, проведенных в начале XX века. Из-за разногласий между представителями крупных фирм, действующих в нефтяной промышленности с представителями мелких и средних фирм в рассматриваемый период, этот вопрос не смог найти своего решения. Несмотря на то, что представители мелких и средних фирм в своих докладах выступили с принципом, что все фирмы нефтяной промышленности имеют равные права в представительстве, открытие которого было предусмотрено, представители крупных фирм, включившие нефтяную промышленность Баку в свои монополии, не позволили осуществить это дело.

**Ключевые слова:** Совет съезда, нефтепромышленники, представительный орган, крупные фирмы, комиссия

**Получено: 25/11/2019** **Принято: 26/12/2019**

## Giriş

XIX əsrin ikinci yarısında Şimali Azərbaycan iqtisadiyyatının kapitalizm mərhələsinə daxil olması bölgəmizdəki sənaye sahələrinin inkişafını sürətləndirdi. Bu sahələrdən biri də bəhs olunan dövrdə özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuş Bakı neft sənayesi idi ki, burada da yerli və xarici kapital nümayəndələrinin fəaliyyəti başlıca olaraq sərmayə qoyuluşuna əsaslanırdı. Buna müvafiq olaraq xırda, orta və iri neft sənayesi firmaları arasında neftverən torpaqların ələ keçirilməsi uğrunda rəqabəti daha çox sərmayəyə malik olan iri firmaların  üstünlük qazanmalarına səbəb olurdu. Bəhs olunan dövrdə mövcud iqtisadi vəziyyət neft sənayeçilərinin hökumət orqanları qarşısında müxtəlif məsələlərin həlli ilə bağlı vəsatət qaldırmaları zəruriliyini vacib bir məsələ kimi ortaya qoyurdu. Buna müvafiq olaraq 1884-cü ildə sahə sahibkarlıq təşkilatı strukturuna malik Bakı Neft Sənayeçiləri Qurultayı təsis edilmiş və bu təşkilkatın fəaliyyəti 1920-ci ilə qədər davam etmişdir.Bakı Neft Sənayeçiləri Qurultayının qurultaylarında və onun icraçı orqanı olan qurultay Şurasının iclaslarında inzibati-təsərrüfat sahəsinə aid olan müxtəlif məsələlərlə yanaşı olaraq, neft sənayesinə aid olan iqtisadi və siyasi məzmunlu məsələlərin də müzakirəsinə geniş yer verilirdi. Bu tipli məsələlərdən biri də neft sənayeçilərinin hökumət dairələri ilə münasibətlərinintənzimlənməsi üçün Peterburqda (Petroqradda) daimi nümayəndəlik orqanının açılması məsələsi idi.

## Bakı Neft Sənayeçiləri Qurultayının Peterburqda nümayəndəliyinin açılması məsələsinə dair

Bakı neft sənayeçilərinin 1908-ci ildə çağırılan XXVI fövqəladə qurultayında gündəliyə salınan əsas müzakirə mövzusu Bakı neft sənayeçilərinin Peterburqda daimi nümayəndəlik orqanının açılması məsələsi olmuşdur. Bu məsələnin müzakirəyə çıxarılması qurultay Şurasının bütün strukturunun yenidən təşkil olunması məqsədi ilə bağlı idi. Qurultayda təftiş-maliyyə komissiyasının sədri, E.L.Nobel ilə eyni mövqedən çıxış edən A.İ.Manço tərəfindən qurultay iştirakçılarına məruzə təqdim olunmuşdur. Təftiş-maliyyə komissiyası Bakı neft sənayeçiləri qurultaylarının qərarlarına zidd gedərək, qurultay Şurası və onun sədrinin hüquqlarının, səlahiyyətlərinin məhdudlaşdırılmasını nəzərdə tutan qurultaylarsız vəsaitlərin təyin edilməsi və sərf olunması layihəsini bu qurultaya təklif etmişdi. A.O.Qukasov, Q.Q.Gəncunçev, S.S.Tağianosov, A.N.Dastakov, A.A.Kələntər, A.Q.Vatsyan və digərlərinin çıxışları ilə uzun müddət davam edən müzakirələrdən sonra qurultay Şurasının “bütün strukturunun birdəfəlik olaraq yenidən təşkil olunması” layihəsi qurultay tərəfindən qəbul

olunmamışdır. [1] Bakı neft sənayeçilərinin Peterburqda daimi nümayəndəlik orqanının açılması məsələsində də təftiş-maliyyə komissiyası ilə qurultay Şurası arasında fikir ayrılığı yaranmışdı. Təftiş-maliyyə komissiyası açılması nəzərdə tutulan yeni orqanda xırda, ortavə iri firmaların bərabər nümayəndəlik prinsiplərinə malik olmalarını təkid edirdi.[2] Müzakirələrin gedişindən məlum olmuşdur ki, nümayəndəliyin açılmasının ən qatı tərəfdarı E.L.Nobel idi. Lakin A.O.Qukasov və S.S.Tağianosov qurultay Şurasının Peterburqda daimi nümayəndəlik orqanının açılmasına etiraz etməsələr də, onun təşkil olunmasının digər status prinsiplərini təklif edirdilər. Bu prinsiplərə görə nümayəndəliyə qurultay Şurasının 5 üzvü seçilməli və onun tərkibinin ümumi sayı 17 nəfərə qədər artırılmalı idi. Qeyd edək ki, xüsusi nümayəndəlik orqanının açılması məsələsinə qarşı yalnız xırda firmaların nümayəndələri müqavimət göstərirdilər. Bu da onunla bağlı idi ki, Peterburqda iri firmaların nümayəndələri yaşadığından, xırda firmalar neft sənayesinə aid olan bütün məsələlərin onların xeyrinə həll oluna biləcəyindən ehtiyat edirdilər.[3]

Bakı neft sənayeçilərinin 1909-cu ilin yanvar-fevral aylarında keçirilən XXVII qurultayında nümayəndəlik orqanının açılması məsələsi yenidən müzakirəyə çıxarılmışdı. Bu qurultayda iştirak edən iri firmalar qurultay Şurasının təklifinə qarşı müqavimət göstərirdilər. İri firma nümayəndələri yalnız muxtar "kollegiya"nın açılması uğrunda mübarizə aparırdılar. Müxtəlif fikir ayrılıqlarının yaranması səbəbindən A.O.Qukasovun təklifi ilə xüsusi komissiya təşkil olunmuş və bu komissiyaya növbəti qurultaya məruzə təqdim etmək vəzifəsi həvalə olunmuşdur. Lakin növbəti qurultayların gündəliyinə bu məsələ daxil edilməmişdir. Qurultay Şurasının sədri A.O.Qukasov E.L.Nobel qrupu tərəfindən təşəbbüs göstərilən şura strukturu və funksiyalarının yenidən təşkil olunması səyinə qarşı kəskin şəkildə mübarizə aparırdı.[4]Lakin buna baxmayaraq, həmin məsələnin qurultay Şurasının iclaslarında müzakirə olunmasından yayınmaq mümkün olmamışdır. Qurultay Şurasının 1910-cu ilin martında keçirilən növbəti iclasında çıxış edən A.O.Qukasov Qurultay Şurasının bütün fəaliyyət dövrü ərzində əsasən təsərrüfat xarakterli məsələlərlə məşğul olduğunu və neft sənayesinin inkişafı üçün zəruri olan vacib məsələləri nəzərdən qaçırması faktını təsdiq etmişdir. Neft sənayesində mövcud olan böhrandan xilas olmağın çıxış yolu kimi neft sənayeçilərinin öz mənafelərini müdafiə etməsi naminə onların nümayəndəlik orqanı qismində birləşməsi zəruriliyi meydana çıxmışdı. Lakin qurultay Şurası bu nümayəndəlik orqanının status prinsiplərini öz tərəfindən işlənib hazırlanması təkidi ilə çıxış

[1]Suleyman Aliyarov, *Neftyanıye monopolii v Azerbaydjane v period pervoy mirovoy voynı*. Baku: İzdanie AQU, 1974, 123.
[2] Elmira Muradaliyeva, *Krov zemnaya – neft Azerbaydjana i istoriya*. Baku: Mütərcim, 2005, 60.
[3]Aliyarov, *Neftyanıye monopolii v Azerbaydjane*...., 123-124.
[4]Aliyarov, "Neftyanıye monopolii v Azerbaydjane...", 124-125.

edirdi. Nobel qrupu qurultay Şurasına paytaxtda nümayəndəlik mərkəzi kimi, ticarət və sənaye nümayəndələri qurultaylarının tərkibində daimi neft komissiyasının təsis edilməsi təklifini irəli sürsə də, qurultay Şurası, xüsusilə onun sədri A.O.Qukasov bu layihəyə qarşı da kəskin şəkildə müqavimət göstərmişdilər.[5] Qeyd edək ki, hələ 1892-cı ildən etibarən qurultay Şurasının Peterburq şəhərində daimi nümayəndəsi fəaliyyət göstərirdi ki, bu vəzifəyə də neft sənayesi sahibkarı E.L.Nobel təyin edilmişdir. Lakin həmin vaxt qurultay Şurası və hökumət idarələri ilə əlaqələndirici orqanın olmaması səbəbindən Nobel bu vəzifədə daimi olaraq fəaliyyət göstərə bilməmişdir. Həm də o, iri firmanın nümayəndəsi olduğundan, xırda firmaların maraqlarını təmin etmək baxımından bu vəzifədə uzun müddət fəaliyyət göstərə bilməmiş və öz işini davam etdirməkdən imtina etmişdir.[6]

Qurultay Şurasının 1895-ci ilin yanvarında keçirilən növbəti iclasında neft sənayeçisi M.İ.Lazarev Peterburq şəhərinə nümayəndə təyin edilsə də, o da həmin vəzifədə uzun müddət çalışmamış və Cənub-Şərq dəmir yolu və “Rops və K$^{0}$” neftayırma zavodu idarələrinin direktoru vəzifəsində fəaliyyət göstərən N.N.İznar 1899-cu ilin yanvarında bu vəzifəyə təyin edilmişdir.[7] 1910-cu ildə qurultay Şurasının Tiflis şəhərində də nümayəndəsi öz işinə başlamışdır. Peterburq şəhərindəki nümayəndədən fərqli olaraq, Tiflis şəhərindəki nümayəndənin saxlanılmasına daha az vəsait sərf olunurdu. Məsələn, Qurultayın büdcəsindən 1911-cu ilin büdcə xərcləri üzrə Peterburq şəhərindəki nümayəndənin saxlanılmasına 10.500 rubl, Tiflis şəhərindəkinə isə cəmi 3600 rubl vəsait ayrılmışdır.[8]

Əvvəlki illərdə olduğu kimi, 1910-cu ildən sonra da keçirilən qurultay Şurasının iclaslarında Peterburq şəhərində xüsusi nümayəndəlik orqanının açılması barədə müzakirələr davam etmişdir. Yuxarıda qeyd olunduğu kimi, 1892-ci ildən etibarən Peterburq şəhərində fəaliyyət göstərən qurultay Şurası nümayəndəsinin funksiyaları o dərəcədə artmışdı ki, bu funksiyaların fərdi surətdə həyata keçirilməsi işi çətinliklərlə qarşılaşırdı. Buna müvafiq olaraq xüsusi kollektiv təşkilatın yaradılması yolu ilə qurultay Şurasının Peterburqda nümayəndəlik orqanının açılması barədə təkliflərin irəli sürülməsi gündəlikdə vacib olan məsələlərdən biri idi.[9]

---

[5] Aliyarov, “Neftyanıye monopolii v Azerbaydjane...”, 125-126.
[6] Polad Xəlilov, *Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyəti tarixindən (XIX əsrin sonu – XX əsrin əvvəlləri)*. Bakı: “Turxan” NPB, 2018, 32.
[7] Xəlilov, *Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyəti tarixindən*..., 33.
[8] “Smeta doxodov i rasxodov Syezda Bakinskix neftepromışlennikov na 1911 qod”. *Trudı XXIX oçerednoqo syezda neftepromışlennikov v qor. Baku (s 30-qo noyabrya po 13-oye dekabrya 1910 qoda)*. Tom I. Baku: Elektropeçatnya qazetı “Baku”, 1911, 11.
[9] *Monopolistiçeskiy kapital v neftyanoy promışlennosti Rossii (1914-1917). Dokumentı i materialı.* L.: İzdatelstvo *“*Nauka*”,* 1973, 200.

1916-cı il oktyabrın 15-də qurultay Şurasının bu məsələ ilə bağlı növbəti iclası keçirilmişdi. İclasda iştirak edən təftiş-maliyyə komissiyasının sədri A.İ.Manço nümayəndəlik orqanının əsas özəyinin Petroqradda (1914-cü ildən 1924-cü ilə qədər Peterburq şəhəri Petroqrad adlanmışdır – P.X.) açılması təklifinə qarşı etiraz etmişdir. A.İ.Manço bunu aşağıdakı səbəblərlə izah etmişdir: 1) baş nümayəndəlik orqanının mədən ərazisində yerləşməsi daha məqsədəuyğun olardı 2) Qafqaz neft sənayesinə aid olan bütün məsələlərin canişinin iştirakı olmadan həll edilməsi mümkün deyildi. Çar tərəfindən Qafqaza canişinin təyin edilməsi baş nümayəndəliyin həmin ərazidə fəaliyyət göstərməsini tələb edirdi 3) Qurultay Şurasının əsas səlahiyyətlərinin Petroqradda yaşayan iri firmaların ixtiyarına istisnasız olaraq verilməsi sindikatın və sairənin yaranmasına zəmin hazırlayacaqdı 4) Nümayəndəliyin Petroqradda açılması ilə qurultay Şurasının fəaliyyət dairəsi yalnız təsərrüfat sahələrini idarə etməklə məhdudlaşa bilərdi.[10] İclasda iştirak edən qurultay Şurasının sədri A.O.Qukasov da öz çıxışında bildirmişdi ki, Petroqradda istisnasız olaraq yalnız iri firmaların nümayəndələri yaşadığından, nəzərdə tutulmuşlayihənin qəbul olunması xırda və orta firmaların maraqlarına zidd ola bilər. Nəticədə göstərilən layihə kifayət qədər yüksək səviyyədə işlənib hazırlanmaması bəhanəsi ilə qurultay Şurasının üzvləri tərəfindən qəbul edilməmişdir.[11]

Öz mülahizəmizə əsasən bildirək ki, əslində A.O.Qukasovun xırda və orta firmaların mənafeyini güdmək baxımından çıxış etməsi səthi xarakter daşıyırdı. Sadəcə olaraq bu layihə qurultay Şurasının maraqlarına cavab vermədiyi üçün A.O.Qukasov göstərilən nümayəndəliyin açılması məsələsinə ciddi şəkildə yanaşmamışdır. Göstərilən layihənin qurultay Şurasının üzvləri tərəfindən qəbul edilməməsi də onu göstərir ki, A.O.Qukasov başda olmaqla iri firmalardan təmsil olunan digər şura üzvləri də nümayəndəliyin heç Qafqaz ərazisində də açılmasının tərəfdarı olmamışdırlar. Təftiş-maliyyə komissiyasının sədri A.İ.Mançonun mövqeyinə gəldikdə isə o, nümayəndəlik orqanının yalnız Bakı mədən rayonları ərazisində açılmasının tərəfdarı idi. Yəni A.İ.Manço əvvəlki illərdə olduğu kimi, yenə dənümayəndəlik orqanında bütün xırda, orta və iri firmaların bərabər hüquqlara malik olmaları uğrunda mübarizə aparırdı.

[10] *Monopolistiçeskiy kapital v neftyanoy promışlennosti Rossii* ..., 207.
[11] *Monopolistiçeskiy kapital v neftyanoy promışlennosti Rossii* ..., 208.

**Nəticə**

Beləliklə, həm qurultay Şurasında təmsil olunan iri firma nümayəndələri ilə digər iri firma nümayəndələri arasında, həm də təftiş-maliyyə komissiyasının sədri A.İ.Manço ilə qurultay Şurası arasında mövcud olan müxtəlif fikir ayrılıqları səbəbindən Peterburq (Petroqrad) şəhərində daimi nümayəndəlik orqanının açılması məsələsi həyata keçirilməmiş qalmışdı. Məlum olur ki, qurultay Şurasının Peterburqdakı (Petroqraddakı) daimi nümayəndəsi orqan statusu qismində deyil, öz fərdi fəaliyyəti əsasında fəaliyyət göstərdiyi üçün neft sənayesinin inkişafı üçün zəruri olan məsələlərin işlənib hazırlanması çətinliklərlə qarşılaşırdı. Buna müvafiq olaraq kollektiv idarəçiliyə əsaslanan orqanın yaradılması məsələsi müzakirəyə çıxarılsa da, yuxarıda qeyd olunduğu kimi, müxtəlif fikir ayrılıqlarının yaranması səbəbindən bu məsələ öz həllini tapa bilməmişdir. Həm qurultay Şurasında təmsil olunan iri firmaların, həm də digər iri firmaların nümayəndələri nümayəndəlik orqanının Peterburqda (Petroqradda) açılmasının tərəfdarı olsalar da, qurultay Şurası öz maraqlarına uyğun olaraq həmin orqanda öz üzvlərinin təmsil olunmalarına daha çox səy göstərirdi. Bu baxımdan təftiş-maliyyə komissiyasının mövqeyi tamamilə başqa cür idi. Yuxarıda qeyd olunduğu kimi, bu komissiya xırda və orta firmaların da maraqlarını nəzərə aldığından, digər iri firmalar həmin komissiyanın təkliflərini qəbul etməmişdilər.

## Ədəbiyyat

ALIYAROV S.S. *Neftyanıye monopolii v Azerbaydjane v period pervoy mirovoy voynı.* Baku: İzdanie AQU, 1974.

XƏLILOV P.R. *Bakı Neft sənayeçiləri Qurultayının fəaliyyəti tarixindən (XIX əsrin sonu – XX əsrin əvvəlləri)*. Bakı: "Turxan" NPB, 2018.

*Monopolistiçeskiy kapital v neftyanoy promışlennosti Rossii (1914-1917). Dokumentı i materialı.* L.: İzdatelstvo "Nauka", 1973.

MURADALIYEVA E.B. *Krov zemnaya – neft Azerbaydjana i istoriya*. Baku: Mütərcim, 2005.
"Smeta doxodov i rasxodov Syezda Bakinskix neftepromışlennikov na 1911 qod", *Trudı XXIX oçerednoqo syezda neftepromışlennikov v qor. Baku (s 30-qo noyabrya po 13-oye dekabrya 1910 qoda),* Tom I. Baku: Elektropeçatnya qazetı "Baku", 1911, 1-81.